# İstedadlı uşaqların təliminin nəzəri məsələləri və bu prosesdə müəllimin rolu

**Zəkiyyə Hüseynova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*ADPU*
**E-mail:** zekiyye.huseynova@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d. L.M. Qurbanova

**Açar sözlər:** istedad, pedaqoji fəaliyyət, yaradıcı müəllim, müəllim hazırlığı modeli, təlim strategiyaları

**Ключевые слова:** талант, педагогическая деятельность, креативный педагог, модель подготовки преподавателей, стратегии обучения

**Key words:** talent, pedagogical activity, creative teacher, teacher training model, training strategies

İstedadın inkişafı və həmin prosesdə müəllimin rolu problemi həmişə tədqiqatçıların maraqlandırmışdır. İstedadlı uşaqların inkişafı və təlimi ilə bağlı problemin başa düşülməsində onlarla işləyən tədqiqatçıların əksəriyyətində vahid baxışlar müşahidə edilmişdir.

İstedadlı uşaqlarla işdə yaranan çətinliklər təkcə istedadın müxtəlif növləri, çoxlu sayda ziddiyyətli yanaşmalarda və metodlarda deyil, həm də istedadlı uşaqlarla müəllimin psixoloji hazırlığının olmaması ilə şərtlənir. Uşaq istedadının psixoloji təhlilində tədqiqatçılar qeyd edirlər ki, sərt reqlamentləşdirilmiş məktəb təlimi uşaq istedadının inkişafına və təzahürünə güclü, uzunmüddətli və sistematik təsir göstərir. Bu təsirin xarakteri və dərəcəsi müvafiq təlim şərtlərindən, müəllimin şəxsiyyətindən, hər yaş mərhələsində istedadlı şagirdlərin psixoloji xüsusiyyətlərindən asılıdır.

Müəllimlərdə belə bir inam hissi vardır ki, istedadlı uşaqları həmyaşıdları arasında seçilməsini görməmək mümkün deyil, onlarla iş aparanda insanda tam məmnunluq hissi yaranır. V.S.Yurkeviçin qeyd etdiyi kimi, bir çox talantlı uşaqlar ilk baxışda heç nə ilə fərqlənmirlər, onları ümumi kütlədən fərqləndirmək üçün böyük təcrübə və xüsusi biliklər lazımdır. Pedaqoqlar belə uşaqlarla işləmək üçün xüsusi hazırlığa ehtiyac hiss edirlər.

Şəxsi istedadın dərkində uşaqların mənəvi tələbatları, təlimin fərdiləşdirilməsi, emosional komfortluq mühümdür, lakin çox vaxt onlar kifayət qədər təmin olunmur, bu da istedadlı uşaqların inkişafının ləngiməsinə gətirib çıxara bilər. Bu özünü ümumi planda birbaşa göstərmir, yalnız kifayət qədər azalmaların nəticələri ilə diqqəti özünə çəkir.

Kütləvi ümumtəhsil məktəblərində təhsil alan istedadlı uşaqlarda yaranan çətinliklərin səbəblərinin psixoloji təhlilində tədqiqatçılar həmin prosesdə müəllim şəxsiyyətinin əhəmiyyətliliyini başa düşürlər. İntellektual istedad strukturunda pedaqoji qabiliyyətləri ilk dəfə yunan filosofu Aristotel müəyyən etmişdir. O, əsas diqqəti təlim prosesinin ikitərəfli xarakterinə istiqamətləndirmişdir. Alimin fikrincə, öyrənən təkcə öz təbii qabiliyyətlərini təkmilləşdirmir, həm də öz qabiliyyətlərini inkişaf etdirir. P.P.Blonskiy və L.S.Vıqotskiy yaradıcı istedad problemini işləmişlər. Onlar xarici ölkə əməkdaşlarının əldə etdikləri nailiyyətləri dərindən araşdırmış və onları tənqidi qiymətləndirmişlər.

İstedadlı uşaqlarla işləyən müəllim şəxsiyyəti haqqında təsəvvürlərin inkişafı bir çox alimlərin: M.M.Kaşanovanın, A.M.Matyuşkinin, E.L.Yakovlevin və başqalarının əsərlərində öz əksini tapmışdır. İstedadlı uşaqların inkişafında müəllimin qiymətə əhəmiyyətli dərəcədə münasibəti B.Q.Ananyev tərəfindən hərtərəfli şəkildə tədqiq edilmişdir. Tədqiqatçının qeyd etdiyi kimi, yalnız talantlı müəllim istedadı dəyərləndirməyə qadirdir. N.S.Leytes istedadlı şagirdlərin inkişafında müəllimin rolunu xüsusi olaraq qeyd etmişdir. Alimin fikrincə, uşağın intellektinin inkişafı və onun yaradıcılığa meylliliyi təkcə onun əqli yüklənmələri ilə deyil, həm də müəlliminin ona necə rəhbərlik edib ruhlandırmasından da asılıdır. Uşaqlar üçün yüksək əqli imkanları adi məktəblər də verə bilər, əgər orada böyük hərflərlə yazılmış "MÜƏLLİM" varsa...

A.K.Маркова, V.İ.Panov bu mövqeyi bölüşərək qeyd edirlər ki, yaradıcı müəllimin psixoloji hazırlığı zəruridir [1,2]. İstedadlı uşaqların təlimində yaranan çətinliklər ətraf aləmi tam qavramaqla bağlı olan tələbatlarla, o cümlədən məktəbin kiçik siniflərində şagirdlərin məmnunluq hissini duymamaları ilə bağlıdır. V.İ.Panovun fikrincə, "istedadlı uşaqlar şüurlu və şüursuz olaraq özlərinin bərabərhüquqlu subyektinin şəxsi münasibətinə, ünsiyyətinə, təlim münasibətinə həmişə ehtiyac hiss edirlər, lakin bunu avtoritar şəraitdə təmin etmək qeyri-mümkündür" [2, s. 39].

Fikrimizcə, istedadlı uşaqlar üçün uğurlu müəllim hər şeydən əvvəl bütün uşaqlar üçün gözəl, mükəmməl müəllimdir. Göründüyü kimi, müəllimin burada rolu bir çox səbəblərlə müəyyən edilir. Müəllimin peşə bacarıqları və onun şəxsi xarakteristikası istedadlı uşaqların nəzərincə spesifik xüsusiyyətlərə malikdir. Eyni zamanda istedadlı şagirdlər müəllimin peşə hazırlığında onun sərt tələbləri ilə üzləşirlər. Özünün tədqiqatında M.B.Şumakova təsdiq edir ki, müasir müəllimlərin əksəriyyəti şəxsi yaradıcılığın əhəmiyyətini və uşaqların yaradıcı təzahürlərini qiymətləndirmir, uşaqların intellektual qabiliyyətlərinə, onların akademik uğurlarına daha çox üstünlük verirlər.

Bu baxımdan istedadlı uşaqlarla müəllimin pedaqoji işə hazırlıq səviyyəsinin kifayət qədər olmaması ona gətirib çıxarır ki, bu uşaqların təfəkküründə və davranışında qeyri-standartlıq, nümayişkaranəlik və inadkarlıq kimi başa düşülür. İstedadlı uşaqlar bütün reproduktiv səviyyələri tez keçir və müəllimləri tərəfindən tənbəl, habelə inadkar və ağılsız uşaq kimi dəyərləndirilirlər. Müəllimlərin istedadlı uşaqlarla işləyə bilməmələrinin bir çox səbəbləri vardır. İstedadlı uşaqlarla təlim prosesində müəllimin psixoloji hazırlığının məzmununun aşkarlanması problemi və onun formalaşması şərtləri bir çox çətinliklərlə müəyyən edilir. Həmin çətinlikləri nəzərdən keçirək:

1) Müasir sosial cəmiyyətdə müəllimlər üçün öz şagirdlərini müdafiə etmək və onları başa düşmək həddindən artıq çox çətindir. Şagirdlərin fəaliyyətinin müəllim tərəfindən düzgün anlaşılmaması və əks etdirilməsi, davranışın yalnız xarici tərəflərinin qəbul edilməsi, o cümlədən mürəkkəb situasiyalarda təhlil etməyə qeyri-qabillik müəllimin düşünülməmiş hərəkətlərinə və əksər hallarda isə istedadlı uşaqlarla konfliktə gətirib çıxarır.

2) Müəllimin şagirdlərlə qarşılıqlı münasibətində xüsusi, şəxsi problemlərlə bağlı qeyri-adekvat təzahürlər baş verdiyindən təlim prosesində də ziddiyyətlər özünü aydın göstərir.

3) İstedadlı uşaqlarla müəllimin təlim işinin effektivliyinin yüksəldilməsi səviyyəsində və obyektiv tələbatlar arasında çətinliklər təzahür edir.

4) Pedaqoji fəaliyyətdə istedadlı uşaqlarla işləyən müəllimlərin psixoloji hazırlığının kifayət qədər olmaması, o cümlədən müəllim hazırlığı modellərinin elmdə və praktikada təsdiqinin olmaması bir çox çətinliklərin yaranmasına gətirib çıxarır.

Müəllimlə uşaqlar arasında birgə təlim prosesində təzahür edən əsas çətinliklər O.M.

Dyaçenkonun fikrincə, mənfi "Mən konsepsiyası", həyəcanlılığın yüksəlməsi, özünüalçaltmaya meyllilik, kommunikativ səriştəliliyin aşağı səviyyəsi, emosional problemlər səbəb ola bilər.

V.D.Şadrikov uşağın mənəvi qabiliyyətinin inkişafından danışarkən qeyd edir ki, bu proses spontan deyil, uşaq bu situasiyada gözləyir ki, insanların hərəkətləri onda müsbət emosional təəssüratlar yaratsın, ətrafdakıların müsbət qiymətləri əxlaqi reflekslərlə müşayiət olunsun. Məktəb təlimi daxilində belə planlaşdırmanı öz şagirdlərinə inanan hər bir müəllim həyata keçirə bilər. Bu onu göstərir ki, müəllimin dəyərlər sistemində konkret şagird necə rol oynayır. Məhz şagirdlərinə inam hissi müəllimin yaradıcılığının məhsuludur. Çünki o şagirdlərini pedaqoji axtarışa istiqamətləndirir, onun konkret qabiliyyəti şagirdlərinə ötürülür, onları hisslərlə təmin edir [3]. Buna görə də, müəllimin bacarıq və qabiliyyətləri V.U.Kuzменконun qeyd etdiyi mühüm amil kimi şagirdlərin qabiliyyətlərinin inkişafında və formalaşmasında mühüm rol oynayır. Müasir ümumtəhsil məktəblərində istedadlı şagirdlərin təlimi ilə bağlı iş aparan elə müəllimlərin olması zəruridir ki, onlar şagirdlərinə psixoloji-pedaqoji dəstəyi təmin etməyə qadir olsunlar [4].

Məktəbdə müəllimin nüfuzu P.P.Semenovun fikrincə, onun pedaqoji ustalığı ilə sıx bağlıdır. Alimin fikrincə, 1) *yaratma ustalığı* - müəllim çox şey edə bilər, yalnız başqaları ilə birləşdikdə çox şeyə nail ola bilər; 2) *təlim ustalığı* – müəllim bacarır, lakin çox şeyi bilmir, informasiya axtarışında axtardığını tapa bilir; 3/ *əməkdaşlıq ustalığı* – o öz nəticələrini şagirdləri və əməkdaşları ilə razılaşıb birləşdirə bilir [5, s. 58].

Yaradıcı təhsil mühitində istedadlı uşaqların inkişafının və təliminin formalaşmasında müəllim şəxsiyyəti mühüm rol oynayır. Müəllim şəxsiyyəti istənilən təlimin mühüm və aparıcı amilidir. İstedadlı uşaqların təlimi ilə bağlı pedaqoji fəaliyyətdə uğurlu müəllim göstəricilərinə onun şəxsi xarakteristikası da aiddir. Belə göstəricilər içərisində müəllimin öz işinin məqsəd və vəzifələrinə, həmçinin özünə, başqalarına inam hissinin və özünəgüvənin olması müsbət haldır. Məhz bunlar şəxsiyyətlərarası ünsiyyətdə öz təzahürünü tapır.

Alim tədqiqatçıların fikrincə, istedadlı uşaqlar üçün müəllimin sinifdə davranışı onun növbəti xarakteristikasında əksini tapır: müəllim fərdiləşdirilmiş proqramlarla işləyir, sinifdə sakit, təhlükəsiz emosional atmosfer yaradır, şagirdlərlə əks-əlaqə yaradır, müxtəlif təlim strategiyalarından istifadə edir, tələbə şəxsiyyətinə hörmət edir, şagirdlərinin müsbət özünüqiymətləndirməsinin formalaşmasına imkan verir, onların dəyərlərini qiymətləndirir, təlim prosesində yaradıcılığını və təxəyyülünü dəyərləndirir, əqli proseslərin yüksək səviyyədə inkişafını stimullaşdırır, şagirdlərin fərdiyyətinə hörmətini təzahür etdirir.

İstedadlı uşaqlar üçün uğurlu müəllim hər şeydən əvvəl tədris etdiyi fənnini sevən, onu dərindən bilən gözəl müəllimdir. Bundan əlavə, müəllim elə keyfiyyətlərə malik olmalıdır ki, o istedadlı uşaqlarla ünsiyyətdə onu həyata keçirə bilsin. Belə ki, xeyirxah və həssas olmaqla istedadlı uşaqların fərdi psixoloji xüsusiyyətlərini bilməlidir, onların tələbat və maraqlarını hiss etməlidir. Yüksək intellektual inkişaf səviyyəsinə malik olmaqla müəllim öz maraq dairəsini genişləndirməlidir. Bunlarla yanaşı müəllim təlimlə bağlı müxtəlif vəzifələrin öhdəsindən gəlməyi təzahür etdirməli, canlı və aktiv xarakterə malik olmaqla yumor hissinə yiyələnməli, həmişə özünütəkmilləşdirməyə və yaradıcı dünyagörüşə malik olmalıdır. Müəllimin istedadlı uşaqlarla əlverişli, müvafiq iş üslubu onun şagirdlərlə birgə yaradıcılığıdır. Birgə yaradıcı fəaliyyətdə müəllim fərdi yanaşmadan mütəmadi istifadə etməklə motivasiya və maraqların yüksəldilməsində birgə fəaliyyət növlərini seçir, uşaqların əqli inkişafı üçün zəruri şərait yaradır.

İstənilən müəllim üçün şagirdlərin sağlamlığı çox mühümdür. Çünki sağlamlıq pedaqoji

əməkdaşlıq texnologiyasının tətbiqini şərtləndirir. Belə yanaşma müəllimin uşağın şəxsiyyətinə diqqət yetirməyi tələb edir. Müəllim uşağın daxili aləminə nüfuz etməklə onun imkanlarını və qabiliyyətlərini aşkar edir. Məhz müəllim uşaq üçün belə bir psixoloji mühit yaradır, onda özünəqüvvəti artırır. Təbii ki, müəllimin təlim prosesində uğurlu işi strategiyaları düzgün seçməsindən çox asılıdır. Müəllimin istedadlı uşaqların təlimi ilə bağlı işində peşəkar ixtisaslaşmanın əsas komponentləri bir tərəfdən onun pedaqoji-psixoloji biliklərə, bacarıq və vərdişlərə dərindən yiyələnməsi, digər tərəfdən isə onun peşəkar-şəxsi mövqeyidir. İstedadlı uşaqlar təlimin fərdiləşdirilmiş və differensiallaşdırılmış proqramlarına tələbat hiss edirlər. Odur ki, belə uşaqlarla işləyən müəllimlər xüsusi hazırlıqdan keçməlidirlər. Məhz yüksək intellektli şagirdlərin öz müəllimlərinə daha çox ehtiyacları vardır.

Hazırlıqsız müəllimlər istedadlı uşaqların fərdi-psixoloji xüsusiyyətlərini kifayət qədər bilmədiklərindən onların istedadını təyin edə bilmir, problemlərinə biganəlik nümayiş etdirirlər. Adi müəllimlərdən fərqli olaraq istedadlı uşaqlarla işləyən müəllimlər vaxt bölgüsündə daha çox fəallığa üstünlük verirlər. Təlim prosesində istedadlı uşaqlarla işləyən müəllimlər az danışır, az informasiya verir, şagirdlərin yerinə tapşırıqları yerinə yetirmirlər.

Müəllimlər şagirdlərindən daha çox soruşur, az izahat işi aparırlar. Belə müəllimlər istedadlı uşaqlara daha çox suallar verir, müzakirədə onlara kömək edir, istiqamətləndirirlər. Təlim prosesində müəllimlərin əksəriyyəti sual-cavaba müdaxilə edirlər, lakin istedadlı uşaqlarla işləyən müəllimlər isə özlərini psixoterapevt kimi aparırlar. Onlar hər deyilən mühakimələrə reaksiya verməkdən uzaqlaşırlar. Belə müəllimlər cavablara diqqətlə qulaq asır, lakin onları qiymətləndirmirlər.

Müəllim deyilənləri qəbul etdiyini şagirdlərə bildirmək üçün üsullar fikirləşir. Belə davranış ona gətirib çıxarır ki, şagirdlər bir-biri ilə birgə fəaliyyətdə olur və müəllimdən asılı vəziyyətdə olmurlar. İstedadlı uşaqların təlimi ilə bağlı işdə mühüm şərtlərdən biri məktəbdə valideynlərin iştirak etmələridir. Müəllimin vəzifəsinə birgə fəaliyyətdə daha səmərəli yollar axtarıb tapmaqdır. İstedadlı uşaqlarla is istər dərsdə, istərsə də dərsdən kənar vaxtlarda çox mürəkkəb, lakin maraqlıdır. Təbii ki, təlim prosesinin təşkilinin əsas forması dərsdir. Hər bir dərsin metod və üsulları rəngarəngliyinə və istiqamətinə görə fərdiləşdirmə və differensiallaşmadır. Qrup işlərinin də mühüm rolu vardır. Çünki qrup işlərində müstəqil idraki fəaliyyət, yaradıcı tapşırıqlar, dialoq, diskussiya həyata keçirilir.

Tədqiqatçılıq fəaliyyətində fərdiləşdirilmiş təlimin mühüm üsullarından biri onun yaradıcı xarakterə malik olmasıdır. Müəllimlə şagirdlərin birgə işi növbəti vəzifələrin həyata keçirilməsini şərtləndirir: müəllim şagirdlərlə məsləhət işi aparır, onların yaradıcı fikir və rəylərini düzgün istiqamətə yönəldir. İstedadlı uşaqlar yüksək motivasiyaya, yaxşı hafizəyə malik olurlar, onlar informasiyaları sistemləşdirə bilir, hər şeyə maraq göstərir, daha çox fikri fəaliyyətini aktivləşdirən oyunlara - şahmat və domino oynamağa üstünlük verirlər. Təlim prosesində istedadlı uşaqların təlimi ilə bağlı işdə müəllimin peşəkar keyfiyyətləri onun növbəti bacarıqlarında həyata keçir. Onlara aiddir: şagirdlərin diaqnostik nəticələrinə görə təlimi təşkil etmək, təlim proqramlarını modifikasiya etmək, xüsusi təlim planları ilə işləmək, o cümlədən müstəqil tapşırıqların yerinə yetirilməsində şagirdlərə kömək göstərmək və onlarla konsultasiya işi aparmaq və s. İstedadlı uşaqlarla iş müəllim üçün çətindir, çünki o fasiləsiz bir prosesdir. Belə proses müəllimdən psixoloqlarla sıx əməkdaşlıq etməyi, özünütəkmilləşdirməyi, şagirdlərlə əməkdaşlıq etməyi, başqa müəllimlərin qabaqcıl iş təcrübəsini dərindən öyrənməyi, öz işinə yaradıcı və kreativ yanaşmağı, psixoloji hazırlıq səviyyəsini təkmilləşdirməyi və s. tələb edir.

Beləliklə, müəllimlərin ixtisaslaşdırılmasının yüksəldilməsi proqramı göstərdi ki, *birincisi*,

bu vaxta qədər müəllimlərin istedadlı uşaqların təlimi ilə bağlı işə psixoloji hazırlığı sistemsiz həyata keçirilmişdir, *ikincisi,* pedaqoji fəaliyyətdə mühüm peşəkar keyfiyyətlər istedadlı uşaqlarla işləyən müəllimlərin fəaliyyətinə müsbət təsir göstərir. Lakin təlim prosesində müəllimlərin psixoloji hazırlıq səviyyəsi hesabatsız həyata keçirilir.

Belə təlimin nəticəsində müəllimlərin pedaqoji bacarıqlara yiyələnməsi onun istedadlı şagirdlərlə ünsiyyətində əsaslı dəyişiklik yaratmır, o cümlədən bu prosesə müəllimin psixoloji hazırlığının inkişafını və formalaşmasını şərtləndirmir. Pedaqoji fəaliyyətdə istedadlı uşaqların təlimi ilə bağlı işdə müəllimin psixoloji hazırlığı komponentlərinin məzmununu müəyyən etmək üçün onların yaş xüsusiyyətlərini dərindən bilmək, onları psixoloji aspektdə təhlil etməyi bacarmaq, istedadlı uşaqların inkişafının və təliminin məqsəd və vəzifələrini müəyyən edib inkişafın effektivliyini təmin edən amilləri araşdırmaq vacib və zəruridir.

**Məqalənin aktuallığı.** Pedaqoji fəaliyyətdə istedadlı uşaqların təlimi ilə bağlı işdə müəllimin psixoloji hazırlığı komponentlərinin məzmununu müəyyən edilməsində psixoloji-yaş xüsusiyyətlərini bilərək onları psixoloji aspektdə təhlil etmək və inkişafın effektivliyini təmin edən amilləri araşdırmaq vacibdir.

**Məqalənin elmi yeniliyi.** İstedadlı uşaqlarla işləmək üçün yüksək şəxsi keyfiyyətlərə malik müəllimləri seçmək, o cümlədən onların şəxsi yaradıcılığını şərtləndirən xüsusi psixoloji treninqlər keçirmək zəruridir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Маркова, А.К. Психология профессионализма / А.К. Маркова. М., М., 2004, 361с.
2. Панов В.И. Одаренные дети: выявление - обучение - развитие / В.И.Панов // Педагогика, 2001, № 4, с. 25-43.
3. Шадриков В.Д. Проблемы профессиональных способностей. М., Инфра. М., 2002, 238 с.
4. Кузьменко В.У. Индивидуализация учебно-воспитательной работы с одаренными детьми дошкольного возраста // Соврем. дет. Сад, 2012, № 5, с. 41-48.
5. Семенов П.П. План работы по реализации программы "Одаренные дети" в учебном году // Завуч, 2012, № 2, с. 43-49.


**З. Гусейнова**

## Теоретические проблемы обучения талантливых детей и роль учителя в этом процессе

## Резюме


В научной статье теоретические вопросы обучения талантливых детей изучаются психологически. В статье объясняются причины, по которым учителя не могут работать с одаренными детьми, а проблему объясняет автор. Автор справедливо заявляет, что высокоинтеллектуальные учащиеся нуждаются в индивидуальных и дифференцированных программах в процессе обучения. Таким образом, учителя,

работающие с такими детьми, должны проходить специальную подготовку.

**Z. Huseynova**

## Theoretical issues of talented children's teaching and the role of teacher in this process

## Summary

In the scientific article, theoretical issues of the teaching of talented children are studied psychologically. The article explains the reasons why teachers are unable to work with gifted children, and the problem is explained by the author. The author rightly states that highly intelligent students are in need of individualized and differentiated programs in the learning process. Thus, teachers working with such children should undergo special training.

**Redaksiyaya daxil olub:** 11.07.2019